## XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI

UOT 37.01.

*Rəbiyə Əli qızı Qəniyeva*
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Gəncə Dövlət Universiteti*

# İDRAK MARAĞI İNGİLİS DİLİNİN ÖYRƏNİLMƏSİNİN VACİB ŞƏRTİ KİMİ

*Рабия Али гызы Ганиева*
*докторант по программе доктора философии*
*Гянджинский Государственный Университет*

# ПОЗНАВАТЕЛЬНЫЙ ИНТЕРЕС – ВАЖНОЕ УСЛОВИЕ ИЗУЧЕНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА

*Rabiya Ali Qaniyeva*
*doctorial student in the proqramme of a Ph.D*
*Ganja State Univercity*

# COGNITIVE INTEREST IS AN IMPORTANT CONDITION FOR LEARNING ENGLISH

**Xülasə.** Yuxarı sinif şagirdinin təşəkkülü onun təlim fəaliyyətində idrak fəallığı ilə bağlıdır. Məktəblinin idrak fəallığı ikili xarakterə malikdir: birincisi, onun inkişaf səviyyəsindən təlimin səmərəliliyi asılıdır; ikincisi, idrak fəallığı nə qədər yüksək olarsa, təhsildə onun uğurları bir elə çox olar. Yuxarı sinif şagirdlərinin idrak fəallığı ona təlim fəaliyyətinin passiv obyektindən təlimin subyektinə çevrilməsinə imkan verir.
***Açar sözlər:*** *idrak, idrak fəallığı, şagirdlərin idrak fəallığı, idrak fəallığının formalaşdırılması*

**Резюме.** Становление старшеклассников связано с их познавательной активностью в учебной деятельности. Познавательная активность школьника носит двоякий характер: во-первых, от уровня ее развития зависит успешность обучения, во-вторых, чем выше уровень познавательной активности, тем выше его удачи в образовании. Активная учебная деятельность старшеклассников дает ему возможность из пассивного объекта учебной деятельности стать субъектом обучения.
***Ключевые слова:*** *познание, познавательная активность, познавательная активность учащихся, формирование познавательной активности*

**Summary.** Formation of high school students is associated with its cognitive activity in learning activities. The cognitive activity of the student is twofold: firstly, the success of the training depends on the level of its development, and secondly, the higher the level of cognitive activity, the higher his success in education. The active learning activity of high school students gives him the opportunity to become the subject of learning from the passive object of learning activity.
***Keywords:*** *cognition, cognitive activity, students' cognitive activity formation of cognitive activity*

İdrak fəallığı şagirdlərin təliminin, təhsilinin, inkişafının və fəallaşdırılmasının mühüm vasitələrindəndir. İdrak fəallığı biliklərə əsaslanır, həmin biliklərdən fəal və müstəqil şəkildə faydalana bilməyi nəzərdə tutur. Fəqət biliklər öz-özlüyündə idrak fəallığına gətirib çıxarmır. İdraka, anlamaya cəhd məktəblilərin, o cümlədən yuxarı sinif şagirdlərinin təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici tələbatlarını meydana gətirir. Bu müddəa idrak fəallığı fenomenini X-XI sinif şagirdlərinin təliminin başlıca akseoloji motivi kimi diqqət mərkəzinə gəlir.

Aktiv idrak fəallığı böyük məktəb yaşlı şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnmələri ilə məhdudlaşdır, həm də dərketmə (idrak) prosesinə və nəticələrinə emosional-qiymətləndirici münasibəti formalaşdırır.

Tədqiqatlardan görünür ki, idrak fəallığı hər biri müvafiq funksiyaları yerinə yetirən modelin qarşılıqlı əlaqədə olan mürəkkəb tamlıq təşkil edən strukturunu özündə birləşdirir. Bu komponentlərə daxildir:

-motivasiya komponenti – tədris-idrak fəaliyyətə təhrik edir;

-məzmun komponenti - fəaliyyətin həyata keçirilməsi üçün baza yaradır;

-şəxsiyyətyönlü komponent – onun tamamlandığını göstərir;

-qiymətləndirici komponent – nəzarət funksiyasını, təshih və qiymətləndirməni yerinə yetirir.

Modelin həyata keçirilməsi aşağıdakı şərtlər daxilində reallaşır:

1. Müxtəlif diaqnostik metodlardan istifadə etməklə yuxarı sinif şagirdlərinin şəxsiyyətinin sistemli və daimi şəkildə pedaqoji-psixoloji öyrənilməsi. Bu, təkcə şagirdin keyfiyyətlərinin, qabiliyyətlərinin, çətinliklərinin aşkara çıxarılmasını deyil, eyni zamanda onların inkişaf etdirilməsini və təkmilləşdirilməsini nəzərdə tutur.

2. Müəllimin "Şəxsiyyət şəxsiyyətin vasitəsilə formalaşır" prinsipinə əsaslanmaqla, subyekt-subyekt münasibətlərinə uyğun olaraq, yuxarı sinif şagirdinin əqli baqajının inkişafına istiqamətlənmiş mövqeyinə nail olunması. Müəllim özünün çoxillik təcrübəsinə əsaslanmaqla məktəblinin mənəvi və b. keyfiyyətlərinin formalaşdırılması və inkişaf etdirilməsi qayğısına qalır.

3. Böyük məktəb yaşı (ilk gənclik yaşı) dövrünün psixoloji, əqli inkişafının xüsusiyyətlərinin nəzərə alınması. Şəxsiyyətin inkişafının hər bir dövrü fərqlidir. "Orta" həddə götürərək problemə yanaşmaq tədricən güclü şagirdlərin yoxa çıxmasına, zəif məktəblilərin inkişafının daha çox ləngiməsinə səbəb olur. Tədris-idrak prosesinin texnologiyası yuxarı sinif şagirdlərinin şəxsiyyətlərarası münasibətlərinin xarakterinə, sosial əhatə olunmalarına, biliklərinin və qabiliyyətlərinin səviyyəsinə, ingilis dilinə yiyələnmə, nitq bacarıq və vərdişlərinin formalaşdırılması dərəcəsinə diqqətin yetirilməsini tələb edir, şəxsiyyətin əqli imkanlarını yüksək səviyyəyə qaldırır.

4. Təlimin müxtəlif çətinlik dərəcəsində olan fəal metodlarının geniş şəkildə tətbiqi.

5. İngilis dilinin tədrisi, öyrənilməsi zamanı X-XI sinif şagirdlərinin psixofizioloji (yaddaşın, diqqətin, qavrayışın, təfəkkürün, ali sinir fəaliyyəti tiplərinin), fərdi, milli-etnik xüsusiyyətlərinin nəzərə alınması. İngilis dilinin tədrisi zamanı məktəblinin idrak fəallığının inkişafında mühüm nəticəyə nail olmaq bu parametrin əsas qanunauyğunluqlarını bilməyə və onlardan faydalanmağa, hər hansı bir idrak tapşırığını yerinə yetirməyə imkan verir.

6. İngilis dilinin öyrənilməsində dil vasitələrinin təqdim olunmasındakı varislik və ardıcıllıq. Bu, ingilis dilinin nitq vasitələrinə - leksikasına, fonetikasına və qrammatikasına yiyələnməyə şərait yaradır.

Bu zaman aşağıdakı prinsiplərə əməl olunmalıdır:

1) Sadədən mürəkkəbə. Xüsusən dil öyrənmənin birinci mərhələsində mürəkkəbliyin, yaxud yeniliyin yalnız bir elementinin bir dəfə daxil edilməsi məsləhət bilinir; 2. tezlik, təlim zamanı dildə son dərəcə tezliyi çox olan hadisələrə üstünlük verilir; 3) aktuallıq və prioritetlik - bu və ya digər şagird üçün çətinlik törədən nitq fəaliyyəti növünə diqqət yönəldilir.

7. İngilis dilinin köməyi ilə yuxarı sinif şagirdində yüksək mənəvi-ruhi əhvalın tərbiyə olunması (tədris materialı, rollu və işgüzar oyunlar, situativ tapşırıqlar, gerçəkliyin hadisə və təzahürlərinə münasibət və s.)

İngilis dilinin öyrənilməsi zamanı təlim fəaliyyətində yuxarı sinif şagirdlərinin inkişafına imkan verən idrak fəallığının aşağıdakı didaktik yolları və şərtləri müəyyənləşdirildi:

1. Yuxarı sinif şagirdlərinin motivasiya və idrak səviyyələrinin yüksəldilməsi üçün təlimin fəal metodlarından və qeyri-standart formalarından istifadə;

2. Məktəblilərin müstəqil işlərinə sistemli nəzarət, məşğələlərin sistemli və ardıcıl həyata keçirilməsi məqsədi ilə təlim əməyinin elmi təşkili vərdişlərinin aşılanması;

3. X-XI sinif şagirdlərinin idrak vərdişlərinin inkişaf etdirilməsinə geniş şəkildə cəlb edilməsi nəinki müstəqil əmək vərdişlərini formalaşdırır, eyni zamanda motivasiya istiqamətini





yüksəldir və təshih edir, elmi fəaliyyətə tələbat meydana gətirir.

Pedaqoji prosesin, inkişaf edən şəxsiyyətin və onun idrak fəallığının meyarları kimi şüurlu yaradıcı özünüinkişaf özünü göstərir. Buna nail olmaq üçün şagird özünütərbiyə ilə məşğul olur, özünüdərkinin qayğısına qalır, idrak fəallığına onda tələbat baş qaldırır, o, idrak fəaliyyətinə cəhd edir.

Təqdim olunan modelin müddəalarının həyata keçirilməsi mexanizmi pedaqoji prosesin təşkili texnologiyasından ibarətdir.

Təlim prosesinin idarə edilməsinin səmərəli didaktik şərtlərinin müəyyənləşdirilməsi ingilis dili dərslərində yuxarı sinif şagirdlərində idrak fəallığının formalaşmasına və inkişaf etdirilməsinə zəmin yaradır: idrak prosesinin savadlı pedaqoji idarəolunması (humanist şəxsiyyətyönlü təlim), müstəqil idrak fəaliyyətinin həyata keçirilməsinə məktəblilərin motivasiyası, təlim fəaliyyətinin məzmununun daimi mürəkkəbləşdirilməsi və yeniləşməsi, biliklərin reproduktiv mənimsənilməsi üzərində fəal idrak fəaliyyətinin üstünlüyü və s.

Dərketmənin (idrakın) fəallığı – subyektin ətrafdakı hadisə və əşyalara dəyişdirici münasibətinin təzahürü kimi meydana çıxır. Həmin münasibət olmadan şagirdin fəaliyyəti, fəallığı fəal olmazdı.

Aktiv təlim fəaliyyəti – yuxarı sinif şagirdinin yaradıcı və tamdəyərli həyatından ötrü böyük əhəmiyyət daşıyır. Məktəblinin hərtərəfli fəallığı onu təlim prosesinin subyektinə çevirir. X-XI siniflərdə təhsil alan şagirdlərin təlim prosesində idrak fəallığının inkişafı, təlim və tərbiyənin səmərəli forma və metodlarının müəyyənləşdirilməsi və tətbiqi, məktəblilərin yaradıcı fəallığının formalaşdırılmasına imkan və şəraitin yaradılması idrak fəallığını reallaşdırır.

İdrak fəallığı təfəkkürün tələbatını təmin edir, fəaliyyətin motivlərini, məqsədini, vəzifələrini və istiqamətini müəyyənləşdirir. Fəallığın xassəsi onun subyektə, başqa sözlə, fəaliyyətin müxtəlif formaları üçün fəallığın kəmiyyət və keyfiyyətini müəyyən edən insana mənsubluğundadır. Təlimdə fəallıq təşəbbüskarlığın, müstəqilliyin tərbiyə olunmasına, bilik, bacarıq və vərdişlərin genişləndirilməsinə və möhkəmləndirilməsinə, müşahidəçiliyə, təfəkkürün, yaddaşın, yaradıcı təxəyyülün inkişafına və cilalanmasına imkan verir.

İdrak fəallığı üçün təlimdə axtarıcılıq istiqaməti və idrak marağının məmnun olunmasına cəhd səciyyəvidir. O, eyni zamanda müəyyən vaxt ərzində qarşıda dayanan məqsədə nail olmağa səydə öz ifadəsini tapır. İdrak fəallığının daxili tərəfi (subyektin tələbatları, motivləri, maraqları, əqidəsi, inamı, əqli, fiziki, mənəvi-iradi səyləri və s.) müəyyən vaxt ərzində təlim-idrak fəaliyyətinin səmərəliliyində ifadə edilir.

Bu problemin zahiri (xarici) tərəfini fəaliyyətin məqsədi, obyekti və nəticə təşkil edir. İdrak fəallığının səviyyələrini keyfiyyət səciyyələrinə, əqli fəaliyyətlərin formalaşma səviyyələrinə, həmçinin onun meydana gəlməsi səviyyəsinə əsasən müəyyənləşdirmək mümkündür.

Pedaqoji ustalığa malik ingilis dili müəllimi yuxarı sinif şagirdlərində idrak fəallığını daha asanlıqla formalaşdıra bilir. Çünki o, həm nəzəri, həm də metodik hazırlığa yiyələnib, müəllim-şagird münasibətlərini də düzgün qurur. Usta müəllim yaxşı bilir ki, müstəqil iş yuxarı sinif şagirdlərində idrak fəallığını formalaşdırmaq üçün, onların fəaliyyətini idarə etməyi bacarmaq üçün yaxşı vasitədir və müstəqil işin imkanlarından faydalanır.

Şagirdlərin müstəqil işlərinin məqsədyönlü və səmərəli təşkili, planlaşdırılması və idarə olunması nəinki ingilis dilinə yiyələnməsi təmin edir, eyni zamanda yaradıcı vərdişləri, təşəbbüskarlığı, idrak fəallığını artırır.

Təhsilin şəxsiyyətyönlü istiqaməti yuxarı sinif şagirdlərinin fərdiyyətinin, müstəqil sosial və idrak fəallığın subyekti kimi onun yaradıcı qabiliyyətlərinin, vətəndaşlıq keyfiyyətlərinin aşkara çıxarılması və formalaşdırılması üçün zəruri şəraitin yaradılması ilə bağlıdır.

İngilis dili dərslərində yuxarı sinif şagirdlərində idrak marağı yaratmaq üçün aşağıdakılar lazım bilinir:

1. Şagirdlərin idrak fəallığının səviyyəsini bilmək.

2. Şagirdlərdə idrak marağının yaradılması.

K.Q. Helvetsi "maraq" dedikdə, bunu insanların fəaliyyətinin əsası, onun xasiyyətinin və təsəvvürlərinin əsası kimi nəzərdən keçirirdi. Helvetsinin qənaətincə, "Maraq bizim bütün dü-

şüncələrimizin və bizim bütün hərəkətlərimizin başlanğıcıdır" (1, s. 342).

İ. Kant (2) maraq problemini praktik ağılla əlaqədə götürürdü. Kantın fikrinə görə, insan öz hərəkətlərində şüurlu varlıqdır, hər şeydən əvvəl mənəvi maraqları rəhbər tutur, hissiyyatdan azad olan borc maraqlarına əsaslanır.

İdrak maraqlarının formalaşdırılması problemi ümumtəhsil məktəbinin mühüm vəzifələrindən biridir. Dayanıqlı, sabit idrak marağı təlimdə emosional və rasional cəhətlərin uzlaşdırılması zamanı təşəkkül tapır.

K.D. Uşinskiyə görə, idrak marağının əsasında dayanan əhəmiyyətli element – iradi səydir (3, s. 144).

3. Şəxsiyyətyönlü mövqe baxımından şagirdlərdə idrak fəallığının inkişaf etdirilməsi probleminin mahiyyətini aydın təsəvvür etmək;

4. Subyekt-subyekt yanaşmaya əsaslanmaq;

5. Birgə təlim fəaliyyətində məktəblilərin idrak fəallığının inkişafı prosesinin modelini müəyyənləşdirmək və tətbiq etmək;

6. Müəllim və şagirdlərin qarşılıqlı fəaliyyəti baxımından məktəblilərin idrak fəallığının inkişafının didaktik şərtlərini müəyyən etmək və əsaslandırmaq.

**Problemin aktuallığı.** İdrak fəallığının formalaşdırılmasında idrak marağının yaradılması özünün aktuallığı ilə diqqət mərkəzinə gəlir.

**Problemin yeniliyi.** İdrak marağı ingilis dilinin öyrənilməsinin vacib şərti kimi nəzərdən keçirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə doktorant və dissertantlara, gənc tədqiqatçılara, magistrantlara tədqiqatları zamanı lazım olacaqdır.

## Ədəbiyyat:


1. Гельвеций, К. А. Об уме. М.: Мир книги, 2007.
2. Новгородцев, П. И. Кант и Гегель в их учениях о праве и государстве: Два типических построения в области философии права. М.: Унив. тип., 1901.
3. Ушинский, К. Д. Избранные педагогические сочинения. М., 1949.


**E-mail:** rabiye.n@mail.ru

**Rəyçilər:** *ped.ü.elm dok., prof.* **A.N. Abbasov**,
*ped.ü.fəls.dok.*, dos. **R.A. Salahov**
**Redaksiyaya daxil olub**: 03.12.2018